UOT 378.

***Ayidə Ağarəhim qızı Qəribova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ALİ PEDAQOJİ KADRLARIN PEŞƏ SƏRİŞTƏLİKLƏRİNİN ÜZƏ ÇIXARILMASI YOLLARI

***Аида Агарагим гызы Гарибова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПУТИ ВЫЯВЛЕНИЯ ПРОФЕССИОНАЛЬНЫХ КОМПЕТЕНЦИЙ ВЫСШИХ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

***Ayida Agarahim Garibova,***
*Azerbaijan State Pedagogical University*

# WAYS TO UNCOVER PROFESSİONAL COMPETENCİES OF SENİOR PEDAGOGİCAL CADRES

**Xülasə:** Təhsil sisteminin effektliliyi və təhsilin keyfiyyəti bütövlükdə, pedaqoji və rəhbər kadrların ixtisas və peşə bacarığının səviyyəsindən asılıdır. Çünki təhsildə keyfiyyət dəyişiklikləri müəllimlərin peşə bacarığı və qabiliyyətinin səviyyəsi ilə müəyyənləşir. Pedaqoji kadr hazırlığı sistemində keyfiyyətin təminatı və idarə olunması məhz təlim və tərbiyə prosesindən, müəllimlərin peşəkarlıq səviyyəsindən asılıdır.

***Açar sözlər:*** *müəllim, təlim, tərbiyə, kadr, peşəkar, keyfiyyət*

**Резюме:** Эффективность системы образования и, как правило, качество образования зависят от уровня профессионализма и профессиональных навыков педагогического и управленческого персонала. Потому что качество образования определяется уровнем профессиональных навыков и способностей учителей. Особое обеспечение качества и управления в системе подготовки педагогических кадров зависит от процесса обучения и воспитания, а также от профессионализма преподавателей.

***Ключевые слова***: *учитель, обучение, воспитание, кадры, профессионал, качество*

**Summary:** The effectiveness of the education system and generally the quality of education depend on the level of professionalism and professional skill of pedagogical and managerial staff. Because quality of education is determined by the level of professional skills and abilities of teachers. Specially quality assurance and management in the pedagogical staff training system depend on the training and upbringing process and the professionalism of the teachers.

***Key words:*** *teacher, training, education, personnel, professional, quality*

Bu gün Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini qorumaqla yanaşı Avropaya, dünyaya inteqrasiyaya həssaslıqla yanaşır. Qloballaşma, inteqrasiya prosesləri dünya təcrübəsinin öyrənilməsinə, bu təcrübədən bəhrələnməyə müəyyən imkanlar açsa da xalqımızın, vətənimizin, ölkəmizin inkişafının əsasında ilk növbədə milli mədəniyyətin, milli mənəvi dəyərlərin qorunması prinsipi dayanır. Ona görə də pedaqoji kadr hazırlığında bu məsələlərə xüsusi diqqət yetirilməsi məqsədəuyğun sayılır.

"2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda deyilir: "Müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik olan müəllim kadrları hazırlığı daim diqqət mərkəzində olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dünya Bankı ilə birgə Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"nı hazırlamış, həmin sənəd 2007-ci ildə təsdiq edilmiş-

dir. Konsepsiya təsdiq edildikdən sonra pedaqoji kadr hazırlığının məzmununda islahatların aparılması işinə başlanılmışdır"

"Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə" pedaqoji təcrübənin aşağıdakı əsas növləri üzərində dayanılır:" 1. Tədris təcrübəsi; 2. İstehsalat təcrübəsi, o cümlədən diplomqabağı təcrübə. "Əsasnamədə göstərilir ki: "2.2. Tədris təcrübəsi mütəxəssis hazırlığının xüsusiyyətlərini nəzərə almaqla, təhsil müəssisələri tərəfindən dövlət təhsil standartlarına uyğun müəyyənləşdirilir. 2.3. İstehsalat təcrübəsi bir qayda olaraq, peşə hazırlığı və diplomqabağı təcrübədən, magistr pilləsində isə elmi-tədqiqat və elmi pedaqoji mərhələlərdən ibarət olur. Diplomqabağı təcrübə təlimin yekun mərhələsi olmaqla, bütün nəzəri dərslər və digər təcrübə növləri başa çatdıqdan sonra həyata keçirilir" (4).

Ali təhsilin bakalavriat mərhələsində tədris planına uyğun planlaşdırılmış pedaqoji təcrübə sistemli şəkildə, kursdan-kursa mürəkkəbləşdirilərək keçirilməlidir. Pedaqoji təcrübə fənlərin tədrisi metodikası, pedaqogika və psixologiya kursları tələbələr tərəfindən mənimsənildikdən sonra aparılmalıdır ki, səmərəli olsun. Pedaqoji təcrübə tələbələrin müəllimlik peşəsinə hazırlanması sistemində mühüm rola malikdir. Pedaqoji təcrübə ilə əlaqədar ali məktəblərdə ciddi hazırlıq işləri aparılmalıdır. Pedaqoji təcrübənin həyata keçiriləcəyi ümumtəhsil məktəbləri, uşaq bağçaları və s. qabaqcadan bu iş üçün hazırlıq vəziyyətinə gətirilməlidir. Həmin təhsil ocaqları ilə ali məktəblər arasında müqavilələr bağlanır. Bütün bunlardan sonra universitet və ya institut rektoru pedaqoji təcrübənin keçirilməsi ilə əlaqədar əmr verir.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması ən vacib problemlərdən biridir. Təcrübə və araşdırmalar göstərir ki, keyfiyyətin idarə olunması problemilə bağlı aşağıdakı məsələlərə təminat verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir:

-pedaqoji kadrların keyfiyyətinin yüksəldilməsi;

-müəllimlərin peşəkarlıq səviyyəsinin inkişaf etdirilməsi;

-təlim və tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi.

Ali pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması təkcə təhsil sahəsinə deyil, bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına ciddi təsir baxımından diqqəti cəlb edir. Bu baxımdan aşağıdakı məsələlərinə imkanlar yaranır:

-pedaqoji kadr hazırlığının tələbata uyğun düzgün planlaşdırılması və idarə olunması nəticəsində maliyyə vəsaitinin səmərəli istifadə edilməsinə;

-müəllimlik sənətinin nüfuzunun yüksəlməsinə və müəllimliyin peşəkar fəaliyyət növünə çevrilməsinə;

-müəllimlərin sosial statusunun möhkəmlənməsinə və maddi vəziyyətinin yaxşılaşmasına;

-əmək bazarının inkişafının sürətləndirilməsinə;

-bazar iqtisadiyyatının tez-tez dəyişən tələblərinə və yeni sosial-iqtisadi şəraitə uyğunlaşmaq üçün fasiləsiz təhsil almalarına və s.

İ. Cəbrayılov yazır: "Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması təlimin məzmunu və metodlarına, eyni zamanda bu və ya digər ixtisaslaşmanın məzmununa yeni yanaşmalar tələb edir. Müəllim yalnız bilavasitə ixtisası ilə bağlı biliklərlə kifayətlənməməli, daim peşə səriştəliliyini artırmağa çalışmalı, innovasiyaları mənimsəməli və tətbiq etməyi bacarmalıdır. Pedaqoji kadr hazırlığı prosesində bu məsələlərə ciddi diqqət yetirilməlidir."(2, s.10)

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması müəllim kadrlarının seçilməsinə də diqqətli yanaşma tələb edir. Xüsusilə pedaqoji kadrlar az olan ərazidə bu problemə həssas münasibət daha çox vacibdir. Dünya təcrübəsi göstərir ki, pedaqoji təmayüllü ali məktəbləri bitirmiş məzunlar arasından müəllim kadrları seçilərkən aşağıdakı perspektiv amillər nəzərə alınır: 1) rəqabət qabiliyyətli əməkhaqqı; 2) karyera yüksəlişi; 3) bir peşəkar kimi müəllimlərə müəyyən səlahiyyətlərin verilməsi. Bəzi ölkələrdə müəllimlərin statusunu qaldırmaq üçün ilk növbədə b peşənin yüksək statuslu fəaliyyət növü hesab edilməsi nəzərə alınır və kadrların cəlb edilməsində müsabiqə prinsipinə üstünlük verilir.

Pedaqoji kadrların peşə səriştəliklərinin üzə çıxarılmasında Sinqapurun təcrübəsi maraq doğurur. Bu ölkədə bir qayda olaraq müəllimlərin hazırlanması, seçimi prosesi ilk növbədə

ümumtəhsil məktəblərinin yuxarı siniflərindən başlayır. Belə ki, ümumtəhsil məzunlarının üçdə biri-yuxarı sinif şagirdlərinin ən bacarıqlıları seçilir və onlara gənc müəllimlərin aldığı maaş qədər aylıq təqaüd verilir. Əvəzində həmin şagirdlər üç il müəllimlik edəcəkləri barədə öhdəlik götürürlər. Bu şagirdlərə müəllimlik peşəsi çevik proqramlar vasitəsilə öyrədilir. Sinqapurda müəllimlər də yüksək peşə sahibləri kimi nüfuzlu şəxslər sayılır və onların karyera yüksəlişinə hər cür şərait yaradılır. Sinqapurda üç il müəllim işləyəndən sonra hər ildə bir dəfə attestasiyadan keçmək tələb olunur. Attestasiyadan keçən müəllim üç karyera inkişafı yolundan birini seçə bilər. Belə ki, o, ya baş müəllim, ya tədqiqatçı-metodist, ya da məktəb direktoru vəzifələrini gələcəkdə tutmaq şansı qazanır. Bu zaman daha səriştəli müəllimlər yaradılmış işçi qrupun tərkibinə qatılır və gələcəkdə göstərilən vəzifələrdən birini tutmaq üçün təlimlərdə iştirak edir, mütəmadi olaraq testlərdən keçir və qiymətləndirilirlər.

İ. Cəbrayılov yazır: "Pedaqoji kadr hazırlığı prosesində keyfiyyətin yüksəldilməsində idarəetmənin xüsusi rol vardır. Bu məsələnin həlli üçün təhsildə idarəetmənin təkmilləşdirilməsinin davam etdirilməsi, maraqlı tərəflərin bu işə cəlb olunmasını təmin edən idarəetmə modelinə üstünlük verilməsi vacib şərtlərdən biridir." (2, s. 12)

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarəolunması aşağıdakı yollarla həyata keçirilir:

-məlumatların toplanılması və təhlili;

-keyfiyyətin monitorinqi, attestasiya və akkreditasiya prosesləri;

-qiymətləndirmə və dəyərləndirmə;

-qərarların qəbul edilməsi, stimullaşdırma və gələcək fəaliyyətin inkişaf etdirilməsi üzrə layihələndirmədir.

Pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunmasında monitorinq, təhlil və qiymətləndirmənin aparılması mühüm vəzifələrdən biridir.

Mövcud təcrübədən və araşdırılmadan çıxış edərək pedaqoji kadr hazırlığı sisteminin bir-biri ilə qarşılıqlı əlaqədə olan beş mərhələdən ibarət olduğunu göstərə bilərik: 1) peşə baxımından müəllimin özünü təyini; 2) özünütəşkil; 3) elmi-pedaqoji təşəkkül; 4) elmi-pedaqoji cəhətdən özünütəkmilləşdirmə; 5) pedaqoji yenilikçiliyə meyli olmaq baxımından özünürealizə.

Dünya təcrübəsindən aydın olur ki, müəllimin ali məktəblərdə səriştəlilik və peşəkarlıq səviyyəsinin yüksəldilməsində interaktiv təlim metodlarından səmərəli istifadə bacarığı vacibdir. Məhz buna görə də Azərbaycan təhsilində uğurla həyata keçirilən təlimin məzmun və metodları, öyrədici mühit, qiymətləndirməni özündə birləşdirən model milli zəminə söykənməklə dünya təcrübəsi əsasında öyrənilir, ümumbəşəri dəyərlərə müvafiq olaraq tətbiq edilir.

**Problemin aktuallığı:** Müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik olan peşəkar müəllim kadrları hazırlığı daim diqqət mərkəzində olduğundan ali pedaqoji kadrların peşə səriştəliklərinin üzə çıxarılması yollarının araşdırılması bu baxımdan aktualdır.

**Problemin elmi yeniliyi:** Elmi məqalədə ali pedaqoji kadrların peşə səriştəliklərinin üzə çıxarılması yolları aşkara çıxarılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti:** Elmi məqalədə istifadə olunan ideyalardan ali pedaqoji kadrların peşə səriştəliklərinin üzə çıxarılmasında metodiki baxımdan istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Qurbanova L. Müəllim hazırlığında peşə səriştəliliyinin formalaşdırılması model // ARTPİ-nin Elmi əsərləri, 2013, № 1

2. Cəbrayılov İ. Pedaqoji kadr hazırlığının bəzi məsələləri // ARTPİ-nin Elmi əsərləri, 2014, № 2

3. Cəlilzadə Ş. Təhsil sisteminin inkişafında müəllim hazırlığına dair // Azərbaycan məktəbi, 2014, № 4

4. Əhmədov İ.B. Təhsilin keyfiyyətinin planlaşdırılması, idarə edilməsi və ölçülməsində yeni tendensiyalar. // Təhsildə İKT, 2013, № 1

**E-mail:** aideqeribova16@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* K.R. Quliyeva
*ped.ü.fəls.dok., dos.* S. Qurbanova
**Redaksiyaya daxil olub:** 12.12.2018